**FƏNN**: QİYMƏT VƏ QİYMƏTLƏNDİRMƏ

# MÖVZU 13: QİYMƏTİN ƏMƏLƏ GƏLMƏSİ VƏ VERGİLƏR

**Müəllim**: Rafiq Vahid oğlu Abbasov

**Tarix :** 2025

**İxtisas**: Marketinq

**Qrup**: $3^1,3^2,3^3$

**Mühazirə:** Qarışıq

**FTN 6**: Xarici ticarətdə, vergi sistemində, pul və kredit sistemində qiymətlərin formalaşmasını, onların ölkə və xarici bazarlarda ticarət əlaqələrində tətbiqi metodologiyasının öyrənilməsi təmin edilir

## P L A N

1. Qiymətlərin və vergilərin qarşılıqlı əlaqəsi.
2. Vergiqoyma məqsədləri üçün qiymətin müəyyən edilməsi prinsipləri.

## ƏDƏBİYYAT


1. Çudakov A.D. . "Qiymət və qiymətin əmələ gəlməsi" Dərslik. Bakı, "Elm", 2009, rus dilindən tərcümə, 312 səh.

2. Kazımlı X., Bayramov Q., Sadıqov B., Quliyev İ., Hümbətova S., Məmmədov İ. Qiymətin əmələ gəlməsi. Dərslik Bakı, "Müəllim", 2019, 498 səh.

3. Qarayev İ. Qiymətin əmələ gəlməsi. Dərslik. Bakı, UNEC, 2000, 358 səh.

4. Qafarov N.C., Quliyev İ.Q. Qiymət və qiymətləndirmə. Bakı, ADİU, 2017, 375 səh.

## *1. QİYMƏTLƏRİN VƏ VERGİLƏRİN QARŞILIQLI ƏLAQƏSİ*

Vergi sistemi qiymətlərə təsir göstərir. Qiymətlər isə öz növbəsində vergilərin miqdarını müəyyən edir. Həddən yüksək vergilər iqitisadiyyatın ən müxtəlif sahələri və dairələrində qiymətlərin həddən çox artmasına gətirib çıxardır.

Müəssisə və təşkilatların dövlətlə qarşılıqlı maliyyə münasibətlərini ifadə edən vergi, rüsum və digər vergi ödənişlərinin hamısı qiymətlərin tərkibində müxtəlif metodlarla əks etdirilir. Onlardan bəziləri maya dəyərinin tərkibinə daxil edilir, bəziləri müəssisə və təşkilatların sərəncamında qalan mənfəətdən ödənilir, digərləri isə qiymətə vasitəsiz əlavələrdir.

Ölkəmizdə qüvvədə olan qanunvericilik maya dəyərinə mineral-xammal bazasının təkrar istehsalına, torpağın rekultivasiyasına (*yenidən bərpasına*) ayırmaları, su təsərrüfatı sistemlərindən verilən suyun haqqını, yerin təki, akvatoriya (*su sahəsi*) və dənizin dib hissəsindən istifadə hüququna görə ödənişləri aid edir.

Göstərilən ödənişlər və ayırmalar qiymətlərlə ikili tərzdə əlaqəlidirlər. Əvvələn, onlar hər hansı vergi ödənişləri kimi, məhsulun qiymətinin tərkibinə daxil edilir, ikincisi isə, müvafiq resurs növlərinin qiyməti kimi çıxış edirlər. Məsələn, sənaye müəssisələrinin su təsərrüfatı sistemlərindən götürdükləri suya görə ödəmələri sudan istifadənin qiymətidir ki, o da mövcud qanunvericiliyə əsasən ölkənin bütün ərazisində alınır. O, su təminatı xərcləri və su təchizatı təşkilatlarının normal mənfəəti əsasında müəyyən edilir. Suya görə ödənişin miqdarı, adətən, sudan istifadəçilərin xərclərinə az təsir göstərir. Bu su istehlakçılarının sayının çoxluğu, həmçinin su resurslarının kifayət gədər olması ilə izah edilir ki, bu da təbii olaraq su təchizatı məsrəflərinin aşağı salınmasına imkan verir. Həm də sudan istifadə normativlərinin o qədrə də sərt olmaması buna xeyli dərəcədə təsir göstərir.

Qeyd olunan amillər gələcəkdə sudan istifadə qiymətinin yüksəlməsinə səbəb olacaqdır. Xüsusilə su haqqının böyük artımı, ilk növbədə ölkənin su ilə az təmin olunan rayonlarında sudan istifadənin daha sərt normativlərinin müəyyən olunması hesabına həyata keçiriləcəkdir. Bu onunla izah edilir ki, müəyyən dərəcələr üzrə təsdiq olunmuş normativ daxilində suyun qiyməti istehsal xərclərinə aid edilir, təyin olunmuş normativdən çox su işlədildikdə isə

dərəcənin ölçüsü bir neçə dəfə artırılır. Sudan normativdən artıq istifadəyə görə ödəmələr mənfəətdən hesablanır. Beləliklə, sudan səmərəli istifadə və su tutumlu istehsalların yerləşdirilməsi stimullaşdırılır.

Yerin təkindən istifadə hüququna görə ödənişlər və mineral-xammal bazasının təkrar istehsalına ayırmalar yerin altındakı mineral xammalın qiymətini təşkil edir. Bu ödənişlərin dərəcəsi hasil edilən xammalın dəyəri ilə sıx əlaqədardır. Onların tərtibi və alınması metoduna gəldikdə isə, o, həmin ödənişlərin stimullaşdırıcı funksiyasını həyata keçirir.

Faydalı qazıntıların axtarılması, kəşfiyyatı və hasilatı hüququna görə ödənişlərə müsabiqə və ya hərracda lisenziyaya verilən birdəfəlik ödənişlər və göstərilən işlərin aparıldığı bütün dövr ərzində müntəzəm verilən ödənişlər daxil edilir. Müntəzəm ödənişlər növlərinə görə dərəcələrə ayrılmaqla, aşağı və yuxarı həddlərə malikdirlər. Məsələn, müntəzəm ödənişlərin miqdarı təbii-coğrafi və mədən-texniki şəraitlər nəzərə alınmaqla hər bir yataq üçün faydalı qazıntı növləri, ehtiyatların miqdarı və keyfiyyəti üzrə fərqləndirilməklə müəyyən olunur. Bundan əlavə, istifadəçinin riskinin qiymətləndirilməsi və mədənin rentabelliyi də nəzərə alınır.

Faydalı qazıntıların axtarılması, qiymətləndirilməsi və kəşfiyyatı hüququna görə vergi ödəmələri göstərilən işlərin smeta dəyərini cüzi artırır. Bununla belə, onlar hasilat müəssisəsinin fondlarının dəyərinə və son nəticədə mineral xammalın qiymətinə xeyli təsir edirlər. Faydalı qazıntıların hasilatı hüququna görə ödənişə gəldikdə isə, onlar xammalın qiymətinin səviyyəsindən asılı olaraq müəyyən edilir. Bir çox mineral resurslar üzrə bu ödəmələr, xüsusilə də digər ödənişlərlə birlikdə xammalın qiymətinin səviyyəsinə xeyli təsir göstərirlər. Belə ki, nəcib metallar (*qızıl, gümüş*) üzrə yalnız hasilat hüququna görə ödəniş və itkilər nəzərə alınmadan təkrar istehsala ayırmalar bu metalların qiymətini demək olar ki, beşdə birə qədər artırır.

Nəzərdən keçirdiyimiz ödənişlər ilə qiymətlərin qarşılıqlı əlaqəsi, həm də onunla müəyyən edilir ki, bunlardan bir çoxu əslində müvafiq xammal növlərinin təbii formasındakı qiymətləridir. Onlar iqtisadi kateqoriya kimi qiymətə xas olan bütün funksiyaları yerinə yetirirlər.

İtkini nəzərə almaqla mineral xammalın hasilatı hüququna görə müəyyən olunmuş ödənişlər yerin təkindəki faydalı qazıntıların daha tam çıxarılmasını stimullaşdırır. Müəyyən edilmiş normativdən artıq itkiyə yol verildikdə cəri-

mə ödənişləri (*ödənişin ikiqat artırılması və onun xalis mənfəət hesabına verilməsi*) də bu məqsədi daşıyır. Göstərilən ödənişlər yataqlar üzrə fərqləndirilir ki, bu da təbii-coğrafi amillərdən asılı olan məsrəflərin səviyyəsini bərabərləşdirməyə imkan verir.

Təbii resurslardan istifadə ilə bağlı vergi ödənişlərinin digər növü mineral-xammal bazasının təkrar istehsalına ayırmalardır. Bu ödənişlər əvvəllər tətbiq olunan geoloji-kəşfiyyat və geoloji axtarış işlərinə ayırmaları əvəz edir. Bu ödəniş növü üzrə ayırmaların dərəcəsi yerin təkində söndürülmüş faydalı qazıntı ehtiyatları nəzərə alınmaqla hasil edilən mineral xammalın dəyərindən müəyyən olunur. Bu dərəcələr geniş surətdə fərqləndirilir və müəyyən olunmuş sxem üzrə hesablanır.

Vergi ödənişlərinin spesifik növü əhalinin büdcədənkənar sosial müdafiə fondlarını (*pensiya fondu, dövlət sosial sığorta fondu, icbari tibbi sığorta fondu, məşğulluq fondu*) yaradan ayırmalardır. Göstərilən fondlara ödənişlərin əsas hissəsi maya dəyərinin sosial ehtiyaclara ayırmalar kimi elementinə aid edilir, yalnız az bir hissəsi isə, həmçinin maya dəyərinin elementi olan işçilərin əmək haqqı hesabına ödənilir. Bu ödənişlərin dərəcəsi əmək haqqı fondunun məbləğinə faizlə müəyyən edilir.

Sosial təyinatlı bütün ödənişlər və əmək haqqı iş qüvvəsinin təkrar istehsalının qiyməti olmaqla maya dəyərinin formalaşmasında iştirak edir və beləliklə də məhsulun qiymətləri ilə bir-birinə qarşılıqlı təsir göstərirlər.

"*Sair xərclər*" maddəsi üzrə məhsulun maya dəyərinə, həmçinin çirkləndirici maddələrin yol verilən həddən çox tullantılarının atılmasına görə ödənişlər, müəssisənin istehsal fondlarının tərkibində nəzərə alınan əmlakın icbari sığorta ödənişləri, yol fondlarına ayırmaların bir hissəsi, reklam vergisi, torpaq vergisi, dövlət və gömrük rüsumları, qiymətli kağızlarla əməliyyat vergisi və s. aid edilir.

Əmlak vergisi də ödənişin bir formasıdır. O, formal olaraq müəssisənin fəaliyyətinin maliyyə nəticələri, yəni mənfəət hesabına ödənilir. Lakin faktiki olaraq o, məhsulun maya dəyərinə daxil olan vergilərə aid edilə bilər. Çünki, o, vergiyə cəlb olunana qədərki mənfəətdən ödənilir.

Yuxarıda qeyd etdiyimiz vergilər ayrı-ayrı sahələr və müəssisələr üzrə maya dəyərinin və qiymətlərin səviyyəsi və strukturuna müxtəlif cür təsir göstərirlər. Bu, əvvələn, onunla izah edilir ki, bəzi vergilər ayrı-ayrı istehsal

növlərinin spesifik xüsusiyyətləri nəzərə alınmaqla müəyyən olunur. Məsələn, təbii resursların çıxarılması ilə bağlı vergilər hasilat sahələri müəssisələrinin maya dəyərinə daxil edilir. İkincisi, nəzərə almaq lazımdır ki, hətta bütün sahələr və müəssisələr üçün ümumi olan sosial ehtiyaclara ödəmələr, əmlak vergisi və bəzi digər vergilər istehsalların əmək tutumu və fond tutumlarındakı fərqlərlə əlaqədar olaraq məsrəflərin və qiymətlərin səviyyəsinə müxtəlif cür təsir göstərirlər.

Ümumiyyətlə, nəzərdən keçirdiyimiz bütün vergi ödəmələrinin hamısı birlikdə mənfəət vergisi və dolayı vergilərlə müqayisədə qiymətlərin səviyyəsi və strukturuna ciddi təsir göstərmirlər. Bununla belə, onlar hasilat sahələri müəssisələri məhsulunun məsrəfləri və qiymətlərinin strukturunda xeyli xüsusi çəkiyə malikdirlər.

Qiymətlərin strukturu və səviyyəsinə daha çox təsir göstərən vergi ödəmələri ƏDV, aksizlər və mənfəət vergisidir. Qiymətlərin səviyyəsi və strukturuna mənfəət vergisinin təsiri ƏDV və aksizlərin (*aksizə cəlb olunan əmtəələrdə*) təsirinə nisbətən azdır. Onu da qeyd etmək lazımdır ki, ƏDV dərəcəsi satış qiymətinə, mənfəət vergisi dərəcəsi isə qiymətin yalnız bir hissəsini təşkil edən mənfəətə müəyyən olunur.

Mənfəət istehsal olunan milli gəlirin yenidən bölgüyə daha çox uğrayan hissəsidir. O, maya dəyərinin və qiymətin səviyyəsi ilə sıx qarşılıqlı təsirdə olur. Bazar münasibətləri şəraitində hər bir müəssisə mənfəətini maksimallaşdırmağa çalışır. Buna istehsalın həcminin genişləndirilməsi, maya dəyərinin aşağı salınması, əmtəələrin keyfiyyəti yüksəldikcə qiymətlərin artırılması yolu ilə nail olunur. Azərbaycan iqtisadiyyatında inflyasiya və istehsalçıların inhisarçılığının mövcudluğu şəraitində müəssisələr mənfəətin maksimallaşdırılmasını xeyli dərəcədə qiymətlərin artırılması hesabına təmin edirlər.

Mənfəət ƏDV və aksizsiz mövcud qiymətlərdə məhsulun (*işin, xidmətin*) satış pulu ilə onun istehsalı və realizasiyası məsrəfləri arasındakı fərqdir. O, müəssisənin məhsulunun (*işinin, xidmətinin*), əsas vasitələrinin və başqa əmlakının realizasiyasının maliyyə nəticələrindən və satışdan kənar əməliyyatların, bu əməliyyatlara çəkilən xərclərin məbləği qədər azalan gəlirlərdən toplanır. Mənfəət müəssisənin satışdan əldə etdiyi pulun onun ümumi xərclərindən çox olduğu halda yaranan fərqdir.

Ümumi və xalis mənfəət fərqləndirilir. Ümumi mənfəət satışdan daxil olan bütün pullarla xərclər arasındakı fərqdir. Ümumi mənfəətdən genişləndirməyə, rəhbərliyə və maliyyələşdirməyə çəkilən xərcləri çıxdıqdan sonra xalis mənfəət əmələ gəlir. Mənfəət vergisi də məhz bu mənfəətdən hesablanır. Vergi ödənildikdən sonra xalis mənfəətin yerdə qalan hissəsi səhmdarlar arasında bölüşdürülür.

Mənfəətin miqdarı əsasən iki amildən asılıdır: əvvələn, 1 manatlıq satışdan əldə edilən mənfəətdən, yəni əgər xərclər artırsa, onda mənfəət aşağı düşür və əgər rəqabət satış qiymətlərinin azalmasına səbəb olursa, onda mənfəət də azalır və əksinə; ikincisi, əmtəə dövriyyəsinin həcmindən, yəni satışın hər hansı müəyyən bir artımı mənfəətin çoxaldılmasına gətirib çıxardır.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsinə əsasən Azərbaycanda da müstəqim vergilər dolayı vergilərdən dəqiq ayrılmışdır. Belə bölgü bu vergi qruplarının hər birindən müəyyən məsələlərin həllində istifadə etməyə imkan verir. Məsələn, ƏDV və aksizlər əsas etibarilə büdcənin gəlir hissəsinin formalaşması üçün qabaqcadan təyin edilir.

Bu vergi ödənişlərinin nisbətən asan hesablanması metodikası onların büdcəyə sabit daxil olmalarına kömək edir. Belə ki, ƏDV-nin miqdarı müəyyən olunmuş dərəcədə və dövriyyənin dəyərinə (*qiymətlərdə ifadə olunan reallaşdırılan məhsulun, işin və xidmətin dəyəri*) əsasən istehsalda kənardan maddi məsrəflər, xidmətlər və işlərdən istifadəyə görə oxşar dərəcə üzrə ödənilmiş ƏDV çıxılmaqla hesablanır.

Qiymətlərin səviyyəsi və strukturuna aksizə cəlb olunmuş əmtəələrdən tutulan ƏDV ən çox təsir göstərir. Belə ki, ƏDV və aksizlər tətbiq edildikdən sonra qiymətlər üçdə bir dəfədən də çox artır. Məsələ bundadır ki, həmin əmtəələrə əlavə dəyər vergisi dərəcəsi aksizin daxil edildiyi qiymətlərə müəyyən olunur. Bu halda əmtəələrin dolayı vergisi kəskin surətdə artır.

Əlavə dəyər vergisi əmtəələrin istehsalı, mübadiləsi və ya alınıb satıldığı hər bir mərhələdə onların dəyərinə əlavə olunmuş məbləğə vergi qoyulması sistemidir. Əmtəənin növündən asılı olaraq bu verginin faiz dərəcəsi fərqlənə bilər. Ödəniş sənədlərində ƏDV ayrıca sətirdə göstərildiyi üçün onun ödənilməsinə nəzarət çox asandır.

Əlavə dəyər vergisi – müəssisənin dolayı vergisi olsa da, son nəticədə istehlakçı tərəfindən ödənilir. Aksizlərdən fərqli olaraq o, bütün əmtəələrdən tutulur.

Dolayı vergi kimi ƏDV əmtəənin (*işin, xidmətin*) qiymətinin artırılması formasıdır. O, bilavasitə müəssisənin gəlirinə toxunmur. Çünki bu vergi müəssisəyə deyil, istehlakçıya qoyulur. Müəssisə isə yalnız onu yığandır.

ƏDV əmtəə və xidmətlərin satışı dövriyyəsinə, həmçinin ölkə ərazisinə gətirilən əmtəələrə; həm özünün istehsalı, həm də kənardan alınan bütün əmtəələrin satışı dövriyyəsinə; məsrəfləri tədavül xərclərinə aid edilməyən özünün istehlak ehtiyacları üçün müəssisə daxilində əmtəə və xidmətlərin, həmçinin öz işçilərinə satılan əmtəə və xidmətlərin dövriyyəsinə; digər müəssisələrə və ya fiziki şəxslərə əmtəə və xidmətlərin pulsuz və ya qismən ödənilməklə verilməsi üzrə dövriyyəyə; qızıl əşyalarının, girovla təmin olunmuş öhdəçilik yerinə yetirilmədikdə onların girovu saxlayana verilməsi daxil olmaqla satışı dövriyyəsinə qoyulur.

Ölkəmizdə əvvəllər bütün əmtəə və xidmətlərə ƏDV 20% həcmində müəyyən olunmuşdusada, indi o, 18%-ə endirilmişdir.

Əlavə dəyər vergisi istehsalçı müəssisə tərəfindən ƏDV nəzərə alınmadan faktiki satış qiymətlərinə əsasən hesablanmış yanacaq-yağlama materialları satışı dövriyyəsinə də tətbiq olunur. Burada vergi dərəcəsi 20% təşkil edir.

Mənfəət vergisi və əlavə dəyər vergisi büdcə gəlirlərinin əsas mənbələridir. ƏDV dolayı vergilərdən bütün daxil olmaların təxminən üçdə birini, mənfəət vergisi isə müstəqim vergilərdən bütün daxil olmaların dörddə üçünü təşkil edir.

İstehlakçıdan tutulan və qiymətlərin yüksəlməsinə səbəb olan daha bir vergi aksizidir.* Bu dolayı vergini müəyyən əmtəələrin, yəni araq, şəkər, çay, tütün, benzin, ağ neft, avtomobil və cəvahirat alıcıları ödəyir. "*Aksizlər haqqında*" qanuna görə ölkəmizdə aksiz ödəyiciləri respublika ərazisində istehsal edən və ya alıb sonradan satan, yaxud ölkə ərazisinə gətirən (*öz tələbatları üçün gətirdikləri xammal və materiallar istisna olunmaqla*), yaxud da istehsalla məşğul olan və ya xidmətlər göstərən hüquqi şəxslər (*o cümlədən xarici investisiyaların qoyulduğu müəssisələr*) və fiziki şəxslərdir.

---

*fransız sözü olub, mənası kəsmək deməkdir.

Aksiz ödəyiciləri formal olaraq aksizə cəlb edilən məhsulun istehsalçısı müəssisədir, lakin onun həqiqi ödəyicisi əmtəəni alarkən və xidmət göstərilərkən aksizin pulunu verən istehlakçıdır. Buradan o nəticə çıxır ki, ƏDV kimi, aksiz də qiyməti əmələ gətirən amildir.

Aksiz alınma üsuluna görə dövriyyə vergisinin tutulmasına oxşayır. Onlar əmtəələrin tərtib edilmiş siyahısına əsasən müəyyən olunur və əmtəə istehsalçısının qiymətinə daxil edilir. Bu vergi məsrəflərin və qiymətlərin nisbətindən asılı olaraq əmtəə növləri üzrə fərqləndirilir. Məsələn, spirtin və arağın aşağı maya dəyəri və onların yüksək satış qiymətləri həmin məhsul növləri üzrə yüksək aksiz dərəcələrini müəyyən etməyə imkan verir (*buraxılış qiymətlərinin dəyərinin 80%-dən 90%-ə qədəri).* Aksizə cəlb olunan yüksək qiymətlərin aşağı məsrəflərlə müşaiyət olunmadığı əmtəə növlərinə isə aşağı aksiz dərəcələri müəyyən edilir. Beləliklə, aksiz dərəcələri müxtəlif əmtəə növlərinin qiymətləri və məsrəflərinin nisbətindən ciddi asılı olmaqla təyin edilir.

Aksizlər əvvəlcə ölkədə istehsal olunan istehlak mallarına tətbiq olunmağa başlanmış, az sonra isə neft, qaz, qaz kondensatına da şamil edilmişdir. Neftin aksiz dərəcələri neft mədənləri üzrə fərqləndirilməklə müəyyən olunur. Bəzi idxal əmtəələrinə də aksizlər tətbiq edilir.

Qiymətlərlə (*yalnız daxili deyil, həm də dünya bazarı qiymətləri ilə*) vergi ödənişlərinin növ müxtəlifliyi olan gömrük rüsumları da sıx əlaqədardır.

Gömrük rüsumları-əmtəələr ölkəyə gətirilərkən və ya xaricə aparılarkən alınan vergilərdir.

Xarici ölkələrdə fəaliyyət göstərən gömrük rüsumları sistemi milli istehsalçıların əmtəələrinin qiymətlərindən aşağı qiymətli xarici əmtəələrin milli bazara buraxılmaması məqsədinə xidmət edir. Eyni zamanda ixrac olunan əmtəələrin xarici bazarlarda rəqabət qabiliyyətlərini artırmaq üçün onlar vergiyə cəlb olunmurlar. Bəzi hallarda ixrac əmtəələrinə görə hətta dövlət maliyyə yardımı göstərilir ki, bu da həmin əmtəələrin dünya bazarına yeridilməsi üçün onlara aşağı qiymətlərin müəyyən olunmasını təmin edir.

Azərbaycanda gömrük rüsumları əmtəə və xidmətlərin hökumətin qərarı ilə təsdiq olunmuş siyahıya əsasən həm idxal, həm də ixrac mallarının dəyərlərinə müəyyən edilir.

Sənayecə inkişaf etmiş ölkələrdən fərqli olaraq Azərbaycan xammal, xüsusən də neft və qaz məhsulları ixrac edir.

İdxal rüsumları büdcə gəlirlərinin artırılması, gərgin tədiyə balansı və xeyli xarici borcun mövcudluğu şəraitndə idxalın qabağının alınması məqsədilə müəyyən olunur. İdxal rüsumları Azərbaycan Mərkəzi bankının məzənnəsi ilə manatla hesablanmış əmtəənin müqavilə (*idxal*) dəyərinə faizlə təyin edilir.

Son illərdə vergilərin köməyi ilə qiymətlərin artırılmasına qarşı mübarizə aparmağa cəhd göstərilmişdir. Bu məqsədlə inhisarçı müəssisələr tərəfindən təsdiq olunmuş normativ rentabellikdən artıq əldə edilən mənfəətin hamısının büdcəyə köçürülməsi qanuna salınmışdır. Belə ayırmalar inhisarçı müəssisələrin üstəlik mənfəətinin alınması üsulu kimi çıxış edir. Bu vergi qiymətlərin inflyasiya artımını dayandırmağa və vaxtında inhisarçı müəssisələr tərəfindən iqtisadi cəhətdən əsaslandırılmamış mənfəətin əldə edilməsinin qabağının alınmasına yönəldilmişdir.

Beləliklə, qiymətlər və vergilərin qarşılıqlı əlaqəsi üç cür təzahür edir. Əvvələn, qiymətlər və vergilər çox yaxın və qarşılıqlı əlaqəli məsələləri həll edirlər. İkincisi, qiymətlər vergilərin  miqdarını və ölçüsünü müəyyən etmək üçün ilkin əsas sayılır. Üçüncüsü, vergilər qiymətlərin səviyyəsi və strukturunu xeyli dərəcədə müəyyənləşdirir və onların yenidən bölüşdürücü funksiyasını yerinə yetirməsi dərəcəsini xarakterizə edir.

## *2. VERGİQOYMA MƏQSƏDLƏRİ ÜÇÜN QİYMƏTİN MÜƏYYƏN EDİLMƏSİ PRİNSİPLƏRİ*

Əmtəə və ya xidmətə verginin miqdarının əsaslandırılmış səviyyədə müəyyən edilməsi üçün həmin əmtəə və ya xidmətin qiymətinin düzgün təyin olunması mühüm əhəmiyyət kəsb edir. Vergiqoyma məqsədləri üçün əmtəə və ya xidmətin öz səviyyəsinə görə bazar qiymətlərinə uyğun gəlməsi nəzərə alınmaqla sövdələşən tərəflərin razılaşdığı qiymət qəbul olunur.

Vergi orqanları vergilərin hesablanmasının düzgünlüyünə nəzarəti həyata keçirərkən aşağıdakı hallarda bağlanmış sövdələrdə qiymətlərin əsaslandırılmasını yoxlamaq hüququna malikdirlər:

1) bir-birindən asılı olan tərəfdaşlar arasında;

2) əmtəə mübadiləsi (*barter*) əməliyyatları üzrə;

3) xarici ticarət sövdələri bağlandıqda;

4) qısa zaman kəsiyində oxşar (*yekcins*) əmtəə və ya xidmətlərin vergi ödəyicisi tərəfindən tətbiq olunan qiymətlərin səviyyəsində yüksəlmə və ya azalmaya tərəf 20%-dən çox kənarlaşma baş verdikdə.

Əmtəə və xidmətlərin sövdəsini həyata keçirən tərəflərin tətbiq etdikləri qiymətlər oxşar (*yekcins*) əmtəələrin bazar qiymətlərindən yüksəlmə və ya azalmaya tərəf 20%-dən çox kənarlaşarsa, vergi orqanı əvvəlki vergi və peniyaya əlavə edilməsinə dair əsaslandırılmış qərar çıxarmaq hüququna malikdir.

Əmtəə və ya xidmətin bazar qiyməti kimi oxşar (*onlar olmadıqda isə yekcins*) əmtəə və xidmətlər bazırında tələb və təklifin qarşılıqlı təsiri nəticəsində yaranan qiymət qəbul edilir.

Bazar qiymətləri tətbiq edilərkən bir-birindən qarşılıqlı asılı olmayan tərəfdaşlar arasında sövdə bağlandıqda qiymətlərə əlavələr və ya onlardan edilən güzətlər, xüsusən də aşağıdakıların səbəb olduğu güzəştlər nəzərə alınır:

a) əmtəə və xidmətlərə tələbin mövsümi və ya başqa artıb-azalmaları;

b) əmtəələrin keyfiyyətinin və ya digər istehlak xassələrinin itirilməsi;

c) əmtəələrin yararlıq və ya satış müddətinin keçməsi (*qurtarma tarixinin yaxınlaşması*);

d) marketinq siyasəti, o cümlədən bazarlara yeni əmtəələr yeridildikdə, həmçinin yeni bazarlara əmtəələr yeridildikdə;

e) istehlakçıların onlarla tanış olmaları üçün təcürbə modelləri və əmtəə nümunələrinin satılması.

Əmtəə və xidmətlər bazarı alıcının (*satıcının*) o qədər də əlavə xərc çəkmədən əmtəə və ya xidməti ona yaxın olan ərazidə və ya onun hüdudlarından kənarda alması (*satması*) imkanı nəzərə alınmaqla müəyyən edilən həmin əmtəə və xidmətlərin tədavül dairəsi qəbul olunur.

Əmtəə və ya xidmətlərin bazar qiymətləri müəyyən edilərkən bir-birindən qarşılqlı asılı olmayan şəxslər arasındakı sövdələr nəzərə alınır. Bu zaman həmin əmtəə və ya xidmətin satıldığı anda oxşar (*yekcins)* əmtəə və xidmətlərin bağlanmış sövdələri barədəki informasiyaya diqqət yetirilir. Belə ki, sövdələrə tədarük edilən əmtəələrin miqdarı (*məsələn, əmtəə partiyasının*

*həcmi*), öhdəliyin yerinə yetirilməsi müddəti şərtləri, ödəniş şərti, həmçinin qiymətlərə təsir göstərə biləcək digər şərtlər nəzərə alınır.

Bu zaman oxşar (*onlar olmadıqda isə - yekcins*) əmtəə və xidmətlər bazarında sövdə şərtləri arasındakı fərqlər həmin əmtəə və xidmətlərin qiymətinə ciddi təsir göstərmirsə, yaxud da əlavə düzəlişlərin köməyi ilə nəzərə alınırsa, bu şərtlər müqayisə edilə bilən hesab olunurlar.

Əmtəə və xidmətlərin uyğun bazarında oxşar (*yekcins*) əmtəə və xidmətlər üzrə sövdələr həyata keçirilmədiyi və ya həmin bazarda belə əmtəə və xidmətlər təklif edilmədiyi hallarda, həmçinin lazımi informasiyalar çatışmadığına görə müvafiq qiymətlərin təyini mümkün olmadıqda, bazar qiymətini müəyyən etmək üçün sonrakı satışın qiyməti metodundan istifadə olunur. Bu zaman satıcının reallaşdırdığı əmtəə və ya xidmətlərin bazar qiyməti alıcının bu əmtəə və ya xidmətləri alıb sonradan satdığı qiymətlə, adətən, belə hallarda həmin alıcının əmtəə və ya xidmətlərin bazara yeridilməsinə çəkdiyi (*onun əmtəə və xidmətlərin satıcısından aldığı qiymət nəzərə alınmadan*) məsrəfləri və bu fəaliyyət dairəsi üçün adi sayılan mənfəətinin cəmi arasındakı fərq kimi müəyyən olunur.

Əgər sonrakı satış qiyməti metodundan istifadə etmək mümkün deyildirsə (*məsələn, alıcı tərəfindən sonradan satılan əmtəə və ya xidmətlərin qiyməti barədə informasiya olmadıqda*), onda məsrəf metodu tətbiq edilir. Bu halda satıcının reallaşdırdığı əmtəə və xidmətlərin bazar qiyməti bu fəaliyyət dairəsi üçün adi olan mənfəət əlavə edilməklə istehsal məsrəfləri əsasında müəyyən olunur. Bu zaman əmtəə və ya xidmətlərin istehsalı (*alınması*) və (*və ya*) satışının müstəqim və dolayı məsrəfləri, həmçinin daşınma, saxlanma, sığorta və s. xərclər nəzərə alınır.

Əmtəə və ya xidmətin bazar qiymətini müəyyən və təsdiq edərkən, həmçinin əmtəə və xidmətlərin bazar qiymətlərinə dair rəsmi informasiya mənbələri və birja qiymət təyin edilməsindən istifadə olunur.

Vergiqoyma məqsədləri üçün əmtəə və xidmətlər ölkə qanunvericiliyinə əsasən dövlət tərəfindən müəyyən edilmiş tənzimlənən qiymətlərə (*tariflərə*) satılarkən yuxarıda göstərdiyimiz qiymətlər (*tariflər*) tətbiq olunur.

Seminar sualları:

1.Vergilər və onları n qiymətlərə təsiri

2.Qiymətlərin strukturu və səviyyəsinə daha çox təsir göstərən vergi ödəmələri
3.ƏDV və qiymətlər
4.Aksizlər və qiymətlər
5.Mənfəət vergisi və qiymətlər
6.Gömrük rüsumları və qiymətlər
7.Vergiqoymada qiymətin müəyyən edilməsi prinsipləri